**X.Y.ƏSGƏROVA**
*baş müəllim*
*e-mail: xumar_xumar@hotmail.com*
**:https://orcid.org/0009-0005-3180-1040**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.261**

# ƏDƏBİYYATDA VƏ İNCƏSƏNƏTDƏ SÜRREALİZM

***Xülasə.*** *Ədəbiyyatda məna və xəttilik standartlarına məhəl qoymayan sürrealizm ənənəvi hekayəçiliyi, dili və düşüncə məntiqini pozur. Rəssamlıqda gerçəklik və rasionallığı inkar edərək, o, reallıq, məkan və obraz anlayışımıza yeni bir forma verir. Yüksək modada gözəllik və zəriflik normalarını alt-üst edən sürrealizm isə tanış bədii formaları və bədən qavrayışımızı sual altına alır. Bu yalnız gündəlik həyatın qəribəliyini yaradıcılıq prizmasından göstərmək deyil, eyni zamanda incəsənətin, qavrayış və cismaniliyin sərhədlərinin yenidən dərindən düşünülməsidir. Ədəbiyyat, rəssamlıq və yüksək moda sahəsində sürrealizm bizi adi olanın hüdudlarından kənara çıxararaq xaosda mənanı, şüursuzluqda həqiqəti, absurdda gözəlliyi axtarmağa sövq edir. O, ədəbiyyatda şüuraltı müəllif xəyallarının verballaşması, rəssamlıqda daxili və dış aləmləri birləşdirən şəxsi mifin vizuallaşması, yüksək modada isə şüuraltı alətə çevrilən geyim obrazları vasitəsilə bədən və reallığın yenidən şəkillənməsidir.*

***Açar sözlər:*** *fərdi üslub, verbal və vizual sürrealizm, orijinallıq və daxili "mən"*

**Giriş**. Birinci Dünya müharibəsinin dəhşətlərinə cavab olaraq, həmçinin burjua düşüncəsinə, əxlaq və rasionallığına meydan oxuma kimi ortaya çıxan sürrealizm – iyirminci yüzilliyin ən təsirli bədii və intellektual hərəkatlarından biridir. Bu yeni istiqamətin qurucu nəzəriyyəçisi şair A.Bröton "Sürrealizmin manifesti" əsərində onu xəyalların, intuisiya və arzuların şifahi və ya yazılı, yaxud hər hansı başqa bir şəkildə ifadə edilməsinə yönəlik *sırf psixi avtomatizm*, yəni zehnin idarəsi olmadığı təqdirdə, heç bir bədii və əxlaqi senzura olmadan sərbəst fikrin diktəsi kimi müəyyən edir [3, s. 33]. Sürrealizmin ideyasına görə, reallıq – üzdən görünənlər deyil, daxildə gizlənənlərdir (yuxular, fantaziyalar, qorxular, şüuraltı olanlar).

Modernist hərəkatın ədəbiyyatdakı nümayəndələri – A.Bröton və onunla birgə manifestin yaranmasında iştirak etmiş P.Eluar, yazıçı L.Araqon, şair R.Şar, jurnalist-ssenarist R.Desnosdur. Sürrealizmin dünya rəssamlıq tarixindəki öncülləri S.Dali (İspaniya), R.Maqrit (Belçika), M.Ernst (Almaniya) və İ.Tangi (Fransa) olmuşdur.

İlk baxışda dadaizmin davamı kimi görünən bu cərəyan, tezliklə öz fəlsəfi və estetik meyarları ilə fərqlənərək şüuraltı qatları, röya, xəyal, təsadüf və qeyri-adi assosiasiyaları mühüm bədii alətə çevirmişdir. Freydin psixoanaliz nəzəriyyəsinin ciddi təsiri ilə formalaşan bu cərəyan, sənətkarları şüuraltının sərhədsiz imkanlarını araşdırmağa sövq etmişdir. Dünya mədəniyyətində bədii-ədəbi cərəyan kimi xüsusi yeri olan sürrealizmin sərhədləri yalnız ədəbiyyat və rəssamlıqla hüdudlanmayıb, mədəniyyət və incəsənətin kəsişdiyi sahələrə – kino, teatr, moda, fotoqrafiya və memarlığa qədər genişlənmişdir. Nəticədə sürrealizm sənətə və mədəniyyətə təkcə forma və məzmun cəhətdən deyil, həm də dünyagörüş baxımından yeni yanaşma gətirmişdir. Onun mədəniyyətə gətirdiyi əsas töhfə xəyal gücünün azad edilməsi, şüuraltının bədii ilhamın ən mühüm qaynağı olaraq qəbul edilməsidir. Avanqard bədii cərəyanlara məxsus daha bir töhfəsi isə, sənətkarını "nəyi deməli"dən "necə deməli"yə keçidə təşviq etməsidir və bu "necə" – üslubdur.

T.Ə.Əfəndiyevaya görə, *üslub* çoxşaxəli məfhumdur: o həm incəsənətdə, həm ədəbiyyatşünaslıqda, həm də dilçilikdə istifadə edilir və bu sahələrin hər birində o, fərqli anlayış ehtiva edir [1, s.29]. Dilçilik elmində bu termin ünsiyyətin müxtəlif ictimai sahələrində işlənən ifadə vasitələri sistemini nəzərdə tutursa, incəsənətdə və ədəbiyyatşünaslıqda o, daha geniş anlayış ifadə edir. Ədəbiyyatda *üslub* dedikdə, ədəbi istiqamətin yazı tərzi, müəllifin müraciət etdiyi lüğəvi xəzinə, məcaz, üslubi fiqur və digər priyomlar diqqətə alınır. Təsviri incəsənətdə isə, bədii üsul, texnika, rəng, forma və kompozisiya prinsipləri toplusu kimi başa düşülür. Ümumilikdə, *üslub* – müəyyən məzmunu forma vasitəsilə ifadə etmə üsuludur. O, dilçilikdə və ədəbiyyatda *dil vasitəsilə* (yazıda və ya nitqdə), rəssamlıqda isə *vizual vasitələrlə* həyata keçirilir və bunların hər birində fikrin və söyləmin məqsədini əks etdirir.

Ədəbiyyatda və təsviri incəsənətdə dərin istedadı və yaradıcı kimliyi üzə çıxaran *fərdi üsluba* gəldikdə, o, qələm və fırça ustalarının fərdi fərqləndirici xüsusiyyətləri və sənətkarlıq komponentlərinin vəhdətindən doğan verbal və vizual tablolarında meydana çıxır. Orijinallıq yaratmanın təməlində fərdi dəstxət dayanır; fərdilik, üslub və sürrealizm mövzusu istər təsviri sənətdə və ədəbiyyatda, istərsə də yüksək modada ortaya çıxan maraqlı mədəni kəsişmədir. Sürreal yanaşma sadəcə bir fərqli *üslub* deyil, həm də şərti sərhədləri pozaraq şüurun daha dərin qatlara çıxışını təmin edən avanqard düşüncə tərzidir. O, ənənəvi qavrayış hüdudlarından kənara çıxaraq yeni özünüifadə yollarını təklif edən, eyni zamanda fərdiliyi kəşf etmənin açarına çevrilən bir dünyagörüşdür.

Hər bir obrazlı təsvir metaforlaşma və metonimləşmə məhsuludur, bu proseslər həm incəsənətdə, həm də ədəbiyyat və poeziyada öz əksini tapır. "*Bu iki prosesdən biri və ya digərinin üstünlüyü heç də yalnız söz sənəti ilə məhdudlaşmır. Rəssamlıq tarixində bunun tipik nümunəsi aşkar metonimiyaya meyilli kubizmdir ki, burada da obyekt sinekdoxik əlamətlər toplusuna çevrilir. Sürrealist rəssamlar buna açıq şəkildə bədii metaforik mövqedən cavab verirlər*" [2, s. 128]. Sürrealist rəssam və ədiblərin obraz axtarışlarındakı mərkəzi yer metaforlardır, daim zidd assosiasiyalar axtarışında olan sürrealistlər öz əsərlərində gözlənilməz obrazlar ortaya çıxarmağa imkan verən üslubi fiqurlardan – *paradoks, antiteza* və *oksimorondan* da istifadə edirlər. Bu fiqurlar özlüyündə qurulmuş nizama qarşı müxalif mövqeni simvolizə edir. Deməli, trop və üslubi fiqurlar əksər hallarda janr, üslub və ədəbi cərəyanların müəyyənedici xüsusiyyəti kimi ortaya çıxır və onların tədqiqi, nəticə etibarilə, bütöv bir janrın və ya ədəbi cərəyanın təsvirinə gətirib çıxarır.

R.Yakobsona görə, romantizm və simvolizm ədəbi məktəblərində *metaforlar* üstünlük təşkil edirdisə, romantizmin tənəzzülü və simvolizmin başlanğıcı arasında ara mərhələyə aid "realist" hərəkatın əsasında *metonimiya* dayanırdı [2, s. 127]. T.Ə.Əfəndiyeva da XVIII əsr Azərbaycan ədəbi dilini realizmə meyilli romantizm dövrü kimi xarakterizə edərək, həmin dövrün Vaqif və Vidadi sənətkarlığı sayəsində yeni *epitet* və *məcazlarla* zənginləşdiyi fikrindədir [1, s. 32]. Üslubiyyatçı A.Süami fransız ədəbi romantizmində *hiperboladan* daha çox istifadə edildiyini qeyd edir [4, s.98]. Ədəbi romantizmin banisi, poeziyanın Delakruası hesab edilən Hüqonun hiperbolik məzmunlu *epitet, metafor* və *bənzətmələri* də əsasən gözəllik, aydınlıq və müəmmanı simvolizə edən *rəng, işıq* və *kölgə* üçlüyü əsasında nəşət tapmışdır.

Verbal və ya vizual tablolarda ifadə olunan sürreal metaforların reprezentasiyası fərqlidir. Bu fərq eyni fikrin iki müxtəlif üsulla ifadə olunmasındadır. Rəsmdə vizual xarakterli hədəf seyirçi qavrayışını pozan estetik təcrübə rolunu oynayır. Ədəbiyyatda isə bu vurğu əsasən daxili kəşfiyyat, şüuraltı və psixi qavramanın inkişafı üzərinə yönəlir. Bir sözlə, sürrealist hərəkat həm rəsm, həm də ədəbiyyatda ümumən reallıq və məntiqi nizam qaydalarını alt-üst etmək istəyini bölüşsə də, müvafiq auditoriyalara çıxışında (seyirçi və ya oxuyucu) özünün vizual və verbal reprezentasiyaları ilə fərqlilik nümayiş etdirir.

Ədəbi sürrealizm *avtomatik yazı, dil oyunu, qeyri-xətti süjet* və *assosiasiyalarla* müşayiət olunur. R.Desnos təməl yöntəmin öndə gedənlərindəndir. Onun sürrealist ruhlu əsərlərindən *Bişmiş dil* "Langage cuit" şeirlər seriyasını absurd söz oyununa nümunə göstərə bilərik.

Bu seriyadan olan *Axşam küləyi* (Vent nocturne) şeirində R.Desnosa məxsus söz oyunundan ibarət assosiasiyalara diqqət edək: *fəth edilmiş məşuqələr* “maîtresses maîtrisées”, *tüklü saçlar* “cheveux chevelus”, *səmavi göylər* “cieux célestes”, *ilahi tanrılar* “dieux divins”, *dijital barmaqlar* “doigts digitaux”, *dünyəvi dünya* “terre terrestre”, *insan adamlar* “hommes humains” və s. [5, s. 67].

R.Desnosun poeziyasında əksər hallarda dil və məna arasındakı adi sərhədlər pozulur, absurd və məntiqsizlik tez-tez ənənəvi şeir strukturundan və anlamdan üstün tutulur. Daim yenilik və gözlənilməzlik axtarışında olan şair dildəki hazır və sabit ifadələri dekonstruksiya edir, elementlərini dəyişdirir, sətirboyu səpələyir. Fransız dilində *le vieillard encore vert* ifadəsi “canısulu qoca” mənasında işlədilir. Məcaz yüklü *vert* “cavan” (*yaşıl*) terminini eyni semantik cərgəyə aid digər üçlüklə – *violet-orangé-rose* “bənövşəyi-narıncı-çəhrayı” ilə əvəzləyən şair sabit ifadəyə xas məlum məcazi mənanı daha mücərrəd və qeyri-müəyyən istiqamətə yönəldir: “*Ce vieillard encore violet ou orangé ou rose*” [5, s. 68].

Desnos həmin seriyadan olan digər şeirdə “une voix noire” *qara səs* birləşməsi işlədir. Bu assosiasiyanı da “une voix blanche” *ağ səs* (*tembrsiz səs*) ifadəsinin söz oyunu nəticəsində meydana çıxmış şəkli kimi dəyərləndirə bilərik [5, s. 69].

P.Eluar sürrealizmdə özünəməxsus yerə sahibdir; o, Brötonun ideyasını miras almaqla qalmayıb, ona eyni zamanda özündən bir hərarət, lirizm, duyğu, həssaslıq da qatır. Brötonun acı və irrasional dilindən fərqli olaraq, Eluarın dili daha poetik və musiqilidir. *Yer portağal kimi göydür* (La terre est bleue comme une orange) eyniadlı şeirindəki misra ilə o, gözlənilməz bənzətməni metafora çevirə bilmişdir [6]. Bu absurd təsvir formal olaraq bənzətmə olsa da, ruhən daha çox metafordur. Burada söhbət bir-biri ilə əlaqəsi olmayan elementlər arasında uzaq oxşarlıqların müəyyən edilməsindən gedir. Belə ki, Yer kürəsinin portağalla müqayisə edilməsi onu mücərrəd planet kimi deyil, onu bütövlük, sevinc və üzvi həyat simvolu – rəng, dad və sirlərlə dolu canlı orqanizm kimi təqdim edir. Şair bununla göstərir ki, ədəbi sürrealizm yalnız xaos və üsyan deyil, həm də xəyallarda, sevgidə və söz oyununda yaranan gözəlliyin yeni formasıdır.

Azərbaycan ədəbiyyatında Anar və Y.Səmədoğlu yaradıcılığında qeyri-məntiqi süjet, xəyal ilə gerçəyin bir-birinə qarışması, zaman-məkan reallığının pozulması, şüuraltı aləmə eniş, səbəb-nəticə əlaqələrinin aradan qaldırılması kimi sürrealizm elementlərini özündə ehtiva edən əsərlər (*Beşmərtəbəli evin altıncı mərtəbəsi, Qətl günü*) müşahidə edilir.

Vizual sürrealizm bir növ optik illüziyalarla müşayiət olunan vizual poeziyadır. Rəssamlıqda sürrealizm gerçək və obyektiv reallıqdan uzaqlaşaraq xəyal gücünü azad etməyi hədəfləyir. Sürrealist rəssamlar şüuraltına nüfuz etmək üçün məntiq qanunlarına zidd irrasional obraz və formalardan istifadə edir, öz əsərlərində təhrif olunmuş səhnələri, ağlasığmaz və qəribə bir şəkildə yan-yana gətirilmiş obyektləri, yuxuyabənzər nağıl dünyalarını təsvir edə bilirlər. Rasional düşüncədən daha çox, heyrətləndirici emosiya oyatmaq üçün nəzərdə tutulmuş bütün bunlar üç başlıca sürrealistik priyomun – *gerçəkliyin təhrif edilməsi, xəyali ilham* və *avtomatizm* əsasında ərsəyə gətirilir.

*Gerçəkliyin təhrif edilməsi* – sürrealistlərin məntiq, dünya haqqında ənənəvi qavrayış və rasional düşüncəni aşmaq, subyektivliyi araşdırmaq üçün istifadə etdiyi bədii priyomlardan biridir. Bu təhrif sadəcə təsir effekti üçün formanın pozulması deyil, eyni zamanda şüuraltını, arzu, xəyal, qorxu və iç münaqişələri ifadə etmənin bir yoludur. Burada obyektlər təhrif olunmuş şəkildə, bəzən də məntiqə və fizikanın qanunlarına zidd kontekstdə tədqim olunur.

Əgər verbal sürrealizm asan tanınırsa, vizual sürrealizmin oxunması nisbətən çətinlik törədir. Vizual sürrealizmdə obrazlar fərqli obyektlərin uyğun gəlməyən əlamətlərini özündə birləşdirərək estetik qavrayışın gedişində dönüş edir. R.Maqrit “gerçəkliyin təhrif edilməsi”nə söykənən *l’Empire des Lumières* “İşıq İmperiyası” adlı tablolar seriyasında gecənin qaranlığında həyati bir işıq dirəyi ilə işıqlandırılan evin gündüz səması altındakı görüntülərini təsvir edir. Rəssam gecə ilə gündüzün eyni zamanda bir obrazda mövcud olma ehtimalını düşünməyə məcbur edir ki, bu da adi qavrayış məntiqini pozmaqla vizual planda *paradoks* effekti yara-

dır. Bu, həm də "uyğun olmayan elementlərin qarşılaşdırılması" (*gecə* və *gündüz*) adlanan digər bir sürrealist texnikanın gözəl nümunəsidir.

R.Maqrit öz əsərlərində verbal sürrealizmdən də məharətlə yararlanmışdır. Onun qəlyan rəsmli tablosuna verdiyi ad poetikliyi ilə bərabər (vizual planda *metonimiya* analoqudur), həm də absurddur – *Bu, qəlyan deyil* "Ceci n'est pas une pipe".

*Xəyali ilham* xüsusi ruh halı olaraq rəssamın sirli və xaotik daxili aləmindən qaynaqlanır. Sürrealistlər xəyallardan, qarabasma və şüuraltı fantaziyalardan ilham alır, lakin sadəcə xəyal etmir, həm də arzularını bədii reallığa çevirərək seyirçini röyayabənzər bir təcrübə yaşamağa dəvət edirlər. *Xəyali ilham* şüuraltı dərinliklərə enə bilən, mümkünsüzü mümkün edə bilən dünyalara açılan qapıdır.

Hər bir sürrealist rəssam özündə yaradıcı şüur və özünüifadə biçimini inkişaf etdirir. *Fərdi sürrealizm* anlayışı sürrealist metodlardan özünükəşf, psixoloji iş və yaradıcı yöndən özünüifadə forması kimi istifadə anlamına gəlir. S.Dali sürrealist üslubda yoğrulmuş fərdiliyin mütləq nümunəsidir. Onun "Yaddaşın davamlılığı" əsərində *ərimiş saatlar* zamanın elastikliyini və reallığın nisbiliyini simvollaşdırır. Əsas mövzusu "ölüm" və "vaxt" olan əsərdə Dali rəsmdən *xəyali dil* kimi istifadə edir və absurddan yararlanması ilə bir qədər P.Eluarı xatırladır.

*Avtomatizm* – qeyri-iradi yaradıcı enerjini sərbəst buraxmağa imkan verən bir yöntəmdir. Rəssamın düşünülməmiş, intuitiv şəkildə fırçanı hərəkət etdirərək rəsm çizməyə çalışdığı bir texnikadır. Hesab edilir ki, bu üsulla şüuraltı həqiqi hissləri ifadə etmək mümkündür. Bədii avtomatizmlə məşğul olmuş İv Tanginin rəsmləri fransız sürrealist poeziyasının vizual ekvivalenti kimi qəbul edilir.

Ənənəvi qavrayışı inkar etmək, səbəb-nəticə əlaqələrini pozmaq, dünyanı xəyali, irrasional məkan kimi təsvir etmək sürrealist-rəssamların özünüifadə texnikasıdır. Onların yaratdığı əsərlərdə adi əşyaların öz tanış mənalarını itirərək xəyalabənzər obrazlara çevrilməsi həmin dövr cəmiyyətdəki qəliblənmiş standartlara qarşı fərdi müqavimət və bədii etiraz formasına çevrilmiş oldu.

Mədəniyyətə şüuraltı ifadə və yaradıcı təxəyyül azadlığını, qəbul edilmiş sənət ənənəsi, bədii üslub və ədəbi normaları alt-üst etmə imkanını gətirən sürrealizm şair və rəssamları ilhamlandırmaqla bərabər, dizaynerləri də orijinallıq axtarışlarına ruhlandırdı. Sürrealizm xüsusilə yüksək modaya (haute couture) əhəmiyyətli təsir göstərərək, dəb dizaynerlərini bir qədər əcaib və təxribat xarakterli yaradıcılıqlara meyilləndirdi. Yüksək moda aləmində sənət, bədən və psixologiya harmoniyasını özündə birləşdirən sürrealizmin məqsədi fərqlidir – *geyimləri geyilə biləcək sənət əsərlərinə çevirmək*. Beləliklə, sürrealizmin yüksək modaya gəlişi onu da təsviri sənət halına gətirir. Çünki burada sənət obyekti kimi modelləşdirilən kolleksiyalar gündəlik tətbiqi həyatı deyil, əsasən xəyal və fantaziyalardan ibarət konsepsiyaları və daxili "mən"i təmsil edir. Modadakı sürrealizm reallıqla fantaziya, gözəlliklə absurd arasındakı sərhədləri ortadan qaldırır. O, daxili görüntüləri səthə çıxararaq şüuraltını materiala, bədəni isə üzərində qəliz mətnlər daşıyan bir kətana çevirir.

Fantaziya məhsulu olan təxribat xarakterli kolleksiyalar özlüyündə bir sürreallıq nümunəsidir. Bu orijinal obrazlar forma və qavrayışı ehtiva edən vizual oyunlarda, ən gözlənilməz materiallardan və mifik-simvolik detallardan istifadədə, vizual paradoks və optik illüziyalarla müşayiət olunan qeyri-müəyyənlikdə ortaya çıxır. Absurd və irrasional nümunələrin ənənəvi düşüncəyə söykənən zərafət və gözəllik normalarına meydan oxuması, ilk növbədə, insanın özünə və dünyaya qəribə, daha yeni və qeyri-adi perspektivdən baxmasına çağırışdır. Bu, eyni zamanda, incəsənət və yüksək moda arasındakı qarşılıqlı əlaqənin ən parlaq təzahürlərindəndir.

Modanın poetik və fəlsəfi dil olmasına yol açan sürrealizm sayəsində podyumlar "yuxu teatrı"nın səhnələrinə çevrilir. Sürrealizmin yüksək modadakı pioner fiquru italyan dizayner E.Skiaparellidir. *Heyrətamiz çəhrayı* "shocking pink" eksklüziv rəng terminini də dəb aləminə o gətirmişdir. Dali ilə əməkdaşlığı sayəsində ortaya çıxan sürreal əsərləri sırasında *skelet izləri olan don*, *ayaqqabı formalı şlyapa, göz zinət əşyaları* ən yaddaqalanlardır. Sürrealizmin yük-

sək modadakı mövzularından biri tanış nəsnələrin funksional dəyişimə uğramasıdır: *dəniz xərçəngi* – paltar olur, *əlcək* – papaq yerinə geyilir, *kəpənəklər* – düyməyə çevrilir [7]. Lakin sürrealizm yüksək modaya qəribəlik elementlərini əlavə etməklə kifayətlənməyib, həmçinin gözəl, estetik və mədəni baxımdan "məqbul" olaraq qəbul edilən bir çox şeyin təməl qavrayışını dəyişdirir və seyirçini zövq və düşüncə üzərində bir daha yenidən düşünməyə vadar edir: "*Cazibədar* və *əcaib* arasındakı xətt haradadır? Nə üçün bir şeyi zərif hesab edirik, digərini yox? Estetik mexanizmlərin arxasında dayanan nədir – şəxsi hisslərimiz, yoxsa sosial konstruksiyalar?"

Mədəniyyət və incəsənətin müxtəlif sahələrinə nüfuz edən sürrealizm irrasional obraz, xəyali və simvolik elementlər vasitəsilə özünü büruzə verir. Dil ilə sükutu, xəyal ilə gerçəyi, bədən ilə düşüncəni bir-birinə bağlamaqla şüuraltına səslənən sürreal yanaşma ənənəvi olan hər şeyi inkar edir: ədəbiyyatda – *xəttiliyi*, rəssamlıqda – *realizmi*, modada isə *tətbiqi funksionallığı* alt-üst edir.

Beləliklə, iç həqiqət axtarışına güclü təkan verən sürrealist yanaşma göstərdi ki, özünüifadə məntiqi olmaya da bilər. İnsan bənzərsizdir və hər kəsin iç dünyası, daxili aləmi bir sənət qaynağıdır. Sürrealizm ümumbəşəri mədəniyyət – ədəbiyyat, rəssamlıq və yüksək moda vasitəsilə insanlığa məntiq və rasionallıqdan uzaq, daha çox fantaziyalar, xəyallar, arzular, intuisiya və təcrübənin önəmli olduğu alternativ gerçəklik anlayışı təqdim edir. O, yalnız fərqli bir avanqard cərəyan və modernist hərəkat deyildir – o, eyni zamanda daxili bir ruh halı, həyat fəlsəfəsi və mədəni müqavimət formasıdır. Məntiqin hökm sürdüyü real dünyamızda şəxsi azadlığı, məntiqə sığmayan daxili gerçəkliyi və insan ruhunun yaradıcı irrasional tərəflərini sərbəst ifadə etmə fürsətini bizlərə məhz sürrealizm təqdim edir.

Xatırladaq ki, yola saldığımız 2024-cü il Brötonun qələmi ilə şəkillənən, Dali və Maqrit kimi ustaların fırçası ilə zirvəyə çatdırılaraq XXI əsri də öz təsiri altında saxlayan bu "mütləq ifadə azadlığı hərəkatı"nın yüzilliyini qeyd etmişdir.

***Məqalənin elmi nəticəsi.*** Sürrealizm yalnız bir "rəssamlıq üslubu" deyildir. O, müxtəlif media növlərinə yayılan, yəni eyni ideyanın və ya estetik prinsiplərin bir neçə fərqli media formasında (ədəbiyyat, rəssamlıq, yüksək moda, kino, teatr və s.) ifadə olunması ilə müşahidə olunan transmedial bir hərəkatdır. Sürrealizm həm də transqressivdir – o, ədəbiyyatda rasionallığa və məntiqə qarşı çıxır, rəssamlıqda tabu mövzulara toxunaraq "yasaq" duyğu və instinktləri incəsənətə gətirir, yüksək modada isə cəmiyyətin "normal" saydığı qaydaları şüurlu şəkildə pozur. Nəticə etibarilə, sürrealizm yalnız bir janra aid olmayan, bir çox incəsənət növündə ifadə olunan (transmedial) və ictimai-mədəni sərhədləri pozan, sosial tabuları sarsıdan (transqressiv) bir hərəkatdır.

Sürreal aləmə keçidin əsas alətləri *ədəbiyyatda* – söz və assosiasiya, *rəssamlıqda* – obraz və kompozisiya, *modada* – bədən, forma və materialdır. Bu mühitlərin hər biri irrasionalı özünəməxsus şəkildə sındıraraq formanı məntiqə deyil, impulsa tabe edir. Ədəbiyyatda sözlər təyinat funksiyasını itirərək şüuraltının açarına çevrilir. Bu keçid dil vasitəsilə baş verir və bu zaman dil anlamötürücü vasitə kimi deyil, anlamçözmə, şərhetmə vasitəsi kimi çıxış edir. Rəssamlıqda bu keçid perspektivin pozulduğu və tanış obyektlərin deformasiyaya uğrayaraq vizual paradokslarda toqquşduğu qeyri-harmonik kompozisiyalar vasitəsilə baş tutur: boyalı kətan daxili dünyanın məkanına çevrilir. Modada xəyal gücünün günlük həyata daxil edilməsi – bədən, forma və material üçlüyü ilə həyata keçirilir. Bu, gözəllik standartlarının məhv edilməsi, siluetlərin parçalanması, xəyal və şüuraltıdan gələn simvolların təcəssümü ilə əldə edilir.

Hər bir halda sürrealizmin məqsədi sadəcə olaraq forma yaratmaq deyil, insan psixikasının gizli mexanizmlərini üzə çıxararaq qavrayışın özünün mahiyyətini yenidən müəyyən etməkdir. Bu, ədəbiyyatda təxəyyül və şüuraltının verballaşması, rəssamlıqda irrasionalın vizuallaşması, yüksək modada isə basmaqəlib obrazların yenidən şəkillənməsi yolu ilə əldə edilir. Bütün bunlar yalnız bir ideya uğrunadır: insanın ağlın və sosial konvensiyaların diktəsindən qurtulması, xəyal gücünün ilkin azadlığına geri dönməsi naminə.

***Məqalənin elmi yeniliyi*** sürrealizmin təhlilinə sahələrarası yanaşmanın tətbiq edilməsindədir. Burada üç fərqli sahə vahid mədəni kontekstdə nəzərdən keçirilir: ədəbiyyat, rəssamlıq və yüksək moda. Bu qarşılaşdırma müxtəlif sənət formaları arasında sürrealist düşüncə və ifadənin ortaq prinsiplərini müəyyənləşdirməyə, həmçinin şüursuz, irrasional və cismani qavramların bu istiqamətlərin hər birində özünəməxsus dəyişimini izləməyə imkan verir. Məqalə sürrealizmi transmedial və transqressiv hadisə kimi diqqətə alan bir nəzəriyyənin inkişafına töhfə verə bilər.

***Məqalənin tətbiqi əhəmiyyəti*** burada əldə edilən nəticələrin tətbiqi imkanlarında cəmlənır: 1) tədris fəaliyyətində incəsənət, yüksək moda və ədəbiyyat nəzəriyyəsi üzrə fənlərarası kursların işlənib hazırlanmasında; 2) sürrealist ənənəni davam etdirən çağdaş bədii konseptual təcrübələrin sənətşünaslıq nöqteyindən təhlilində; 3) sürrealizmin innovativ vizual obrazların yaradılmasında əsas estetik strategiya kimi götürüldüyü yüksək moda və dizayn sahəsində.

**Ədəbiyyat**


1. Əfəndiyeva, T.Ə. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri / T.Əfəndiyeva. – Bakı: Nurlan, – 2007, – 184 s.
2. Якобсон, Р.О. Метафорический и метонимический полюсы // Теория метафоры: Сб.: Перевод с анг., фр., нем., йен., польск. яз./Вступ. ст. и сост. Н.Д.Арутюновой; Общ. ред. Н.Д.Арутюновой и М.А.Журинской. – Москва: Прогресс, – 1990. – с.126-130 [512 с.].
3. Breton, A. Manifestes du surréalisme (1924-1953) / A.Breton. – Edition du groupe “Ebooks libres et gratuits” [http://www.ebooksgratuits.com/]
4. Suhamy, H. Les Figures de style / H.Suhamy. – Paris : PUF, – 2013, – 109 p.
5. Desnos, R. Corps et Biens / R.Desnos. – Edité par la bibliothèque numérique romande, – 2016, – 163 p. [http://www.ebooks-bnr.com]
6. Eluard, P. Œuvres complètes: [en 2 tomes] /P.Eluard. – Paris: Ed. Gallimard, – 1968, – t.1, – 1663 p.
7. Carron de la Carrière, M.-S. Shocking: Les mondes surréalistes d’Elsa Schiaparelli / M.-S. Carron de la Carrière, H.Johannes. – Paris: Boutique du Musée des Arts Décoratifs, – 2022, – 288 p.


**Kh.Y.Askerova**

**Surrealism in Literature and Art**

***Summary***

Surrealism, which subverts the standards of meaning and linearity in literature, disrupts traditional perceptions of narrative, language, and logical thinking. In painting, it rejects verisimilitude and rationality, transforming our understanding of reality, space, and image. In high fashion, surrealism breaks the canons of beauty and elegance, challenging conventional art forms and the very perception of the body. It is not about portraying the strangeness of everyday life from an individual creative perspective, but also about profoundly rethinking the boundaries of art, perception, and the body. In literature, painting, and high fashion, surrealism takes us beyond the ordinary, urging us to seek meaning in chaos, beauty in the absurdity, and truth in the unconscious. In literature, this is the verbalization of the poet’s subconscious dreams; in painting, it is a visualization of the author’s myth, merging the inner and outer worlds; and in high fashion, it is a reimagining of the body and reality through images where clothing becomes a tool of the subconscious.

***Keywords:*** *individual style, verbal and visual surrealism, originality and inner “I’*

**Х.Я.Аскерова**

**Сюрреализм в литературе и искусстве**

***Резюме***

Сюрреализм, подрывающий стандарты смысла и линейности в литературе, разрушает традиционое восприятие повествования, языка и логики мышления. В живописи он отвергает правдоподобие и рациональность, трансформируя наше представление о реальности, прост-

ранстве и образе. В высокой моде сюрреализм нарушает каноны красоты и элегантности, ставя под сомнение привичные формы искусства и само восприятие тела. Речь идёт не только о демонстрации странностей повседневной жизни с индивидуальной творческой точки зрения, но и о глубоком переосмыслении границ искусства, восприятия и телесности. В литературе, живописи и высокой моде, сюрреализм выводит нас за пределы обыденного, побуждая искать смысл в хаосе, красоту в абсурде и истину в бессознательном. В литературе это – вербализация подсознательных снов поэта, в живописи – визуализация мифа, связывающего внутренний и внешний миры, а в высокой моде – переосмысление тела и реальности через образы, в которых одежда становится инструментом подсознания.

***Ключевые слова:*** *индивидуальный стиль, вербальный и визуальный сюрреализм, оригинальность и внутреннее «я»*

*Rəyçi: filol.e.d., prof. Ə.M.Zeynalov*

*Redaksiyaya daxil olub: 17.10.2025*